Xalq qəzeti.- 2024.- 29 avqust, (№ 185). - S.11.

# “Aktyor” filmi milli-mənəvi aşınmaların bədii ağrısıdır



**Tanınmış rejissor Aydın Arslanın ekranlaşdırdığı “Aktyor” filmi milli-mənəvi dəyərlərə sadiqlikdən, insansevərlik və düzlük kimi əxlaq normalarından bəhs edir. Yaxın vaxtlarda tamaşaçılara təqdim ediləcək ekran əsəri son illər Azərbaycanda bu mövzuda çəkilən ilk bədii filmdir. Rejissorun öz ssenarisi əsasında ərsəyə gələn filmin süjeti mühafizəkar aktyor Fərhadın həyat hekayəsi üzərində qurulub.**

**Film barədə XQ-yə məlumat verən Aydın Arslan bildirdi:**

– Ekran işinin mövzusu bütün zamanlarda olduğu kimi, bu gün də aktualdır. Bu filmdə unudulub aradan getməkdə olan bir çox adət-ənənələrimizə, dəyərlərimizə işıq tutmağa çalışmışıq. Ekran işi müasir texnologiya və sosial şəbəkələrin ailə münasibətlərinə təsirini də əks etdirir. Dəyərlərin aşınmasının ağrısı ilə yaşayan Fərhad adlı aktyor 20 illik sənət dostuna görə onunla birgə teatrdan uzaqlaşıb. Ekran əsərində belə önəmli mətləblərə aydınlıq gətirilib.

**– Çəkilişlər harada aparılıb və nə qədər davam edib?**

– Bundan əvvəl çəkdiyim “İlğım” bədii-qısametrajlı filmindən sonra prodüser Mamed Qurbanov, aktyorlar Tural Əhməd, Səmimi Fərhad və Türkay Cəfərovla komanda şəklində işləməyi qərara aldıq. Bu ilin yanvar ayında dramatik səpkili “Aktyor”un çəkilişlərinə başladıq. Çəkiliş başa çatsa da, “post-prodakşın” işləri xeyli vaxt apardı. Bütün çəkilişləri Bakıda – Təzəbazar ətrafında, Keşlə və Günəşlidə aparmışıq. 80 dəqiqəlik ekran əsərinin operatoru Anar Dadaşov, bəstəkarı İffət Əsgərov, rəssamı isə Sahib Kərimovdur. Filmin ərsəyə gəlməsinə, ümumilikdə, 8 ayadək vaxt sərf etmişik.

**– Yaradıcı heyət barədə də məlumat verərdiniz.**

– Çəkilişlərdə 40-dək insan iştirak edib. Onlardan 25-i aktyordur. Film yaradıcılığı komanda işidir. Rejissorun kimliyi nə qədər önəmlidirsə, aktyor heyətinin peşəkarlığı da o dərəcədə zəruridir. Ümid edirəm ki, film hər cəhətdən səsli-sədalı, insanların marağına səbəb olacaq. Ekran əsərində əsas rolları aktyorlar Tural Əhməd, Səmimi Fərhad, Türkay Cəfərli, Könül Şahbazova, Manaf Dadaşov, Mamed Qurbanov, Elvin Əhmədov, Məhəmməd Verdizadə, Tunar Ali və Rəşad İbadov ifa ediblər.

**– Təqdimat nə vaxt olacaq?**

– Avqustun 29-dan etibarən filmin kinoteatrlarda nümayişini nəzərdə tuturuq. İlk təqdimat “Sinema park” və “Park plyus” şəbəkələrində olacaq. 16 yaşdan yuxarı hər kəsin bu filmə baxmaq icazəsi var. Film hansısa yerli və ya beynəlxalq mükafata iddialı deyil, lakin hər bir azərbaycanlı öz ailəsi ilə bu filmə baxarsa, bu, bizim üçün sevindirici olar.

**– Sizcə mənəvi-əxlaqi mövzulu film çəkilişinə maraq niyə azdır?**

– Çox təəssüf ki, son illər didaktik filmləri tapmaq çətinləşir. Film istehsalçıları komedikliyə üstünlük verirlər. Komediya adı altında küçə lətifələri, gülünc hərəkətlər ekranlaşdırılır. Bu filmlər artıq kinoteatrları, sosial şəbəkələri “fəth” edib. İlqar Nəcəf kimi savadlı rejissorların ekran işləri kinomərkəzlərdə bir həftə çətinliklə qaldığı halda, əttökən filmlər illərlə ekranlardan düşmür. Gərək ciddi dəyərlərə, ictimai önəmə yeni maraq yaradaq.

***Ceyhun ALIŞLI***
***XQ***